# Bakı Beynəlxalq Kitab Sərgisinə böyük maraq göstərilir

**Ölkəmizdə son illərdə beynəlxalq kitab sərgiləri keçirilir. Bu sərgilərdə bir çox xarici nümayəndə və nəşriyyat orqanları iştirak edir ki, bu da ölkəmizin həm müasir, həm də tarixi ədəbiyyatının dünyada tanıdılmasına imkan verir.**







10-cu dəfə keçirilən budəfəki kitab sərgisi isə dahi Azərbaycan mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr edilib. Sərgidə **"Zolaqlı pijamalı oğlan" kitabının müəllifi, yazıçı Con Boyn** da iştirak edib. C.Boyn bizimlə söhbətində bildirirdi ki, artıq bir neçə gündür ölkəmizdədir. Azərbaycan incəsənəti və ədəbiyyatı onu çox maraqlandırır. Həmçinin Azərbaycanın tarixi mə-



kanlarını gəzərək mədəniyyət nümunələri ilə daha yaxından tanış olur.

Sərgiyə gələnlər arasında məktəblilərin sayı da xeyli çoxdur. Burada onlar üçün bir çox maraqlı kitablar böyük endirimlərlə satışa qoyulub. Məktəblilərdən **Rüqəyya Həsrətli və Mədinə Həsrətova** deyirlər ki, Azərbaycan ədəbiyyatından daha çox nağıllar və uşaq hekayələri olan stendlərə yaxınlaşırıq. Bu gün isə Bəxtiyar Vahabzadənin əsərləri olan kitabları almışıq. Ailəmiz kitab oxumağımıza çox əhəmiyyət verir, bizi daim yeni əsərlərlə tanış edirlər. Stendlərə nəzər yetirdikcə, digər alıcılarla da həmsöhbət olduq. **Günel Sultanova** dedi ki, hər il kitab sərgisində iştirak edirəm, bu il daha çox çeşid var və müasir yazıçılara da çox yer verilib. Mən özüm də müasir yazıçıların əsərlərini oxumağa üstünlük verirəm, Elxan Elatlı ən sevdiyim yazıçılardandır.




**MİMTA yayımlarının direktoru Əsəd Aslanoğlu** da sərgi barədə öz fikirlərini bölüşdü: "Bu il 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi keçirilir, burada ən sevindirici hal odur ki, uşaqlar kitab oxumağa valideynləri ilə birgə yönəlirlər. Valideynlər uşaqlarına çox gözəl dəyərlər aşılayırlar, onlar Azərbaycan klassiklərini sevdirirlər. Kitab satışları isə yaş qruplarına görə fərqlənir, daha çox bədii ədəbiyyatlara maraq var".

Sərgidə diqqətçəkən məqamlardan biri də oxucuların marağını cəlb edən "Oğuz dədə" obrazı idi. Balaca dostlarımıza "Oğuz dədə"ni tanıtmaq üçün bu obraza sərgidə yer verilmişdi. Belə ki, bu obraz balacaların kitablara marağını artırır və onlara keçmiş türk adət-ənənələrini tanıdır.

Daha sonra isə qədim türk incəsənəti olan Ebru sənəti nümunələri ilə qarşılaşırıq. Sərgidə ziyarətçilərin böyük marağını cəlb edən stenddə maraqlı əsərlər yerləşdirilmişdir. Əsərlərin yaradıcısı olan **Begüm Coşkun** bu sənətin tarixi ilə bağlı məlumatları bölüşür və deyir ki, Ebru sənətinə Azərbaycanda çox böyük maraq müşahidə etdim. Bu sənətin yüz illərə dayanan bir tarixi var. Mən özüm 10 ildən çoxdur bu sənətlə məşğulam və müşahidələrimə görə azərbaycanlılar da bu sahəyə maraq göstərir, çünki gələnlər artıq bu sənətin adını bilir və mənim işlərimi diqqətlə izləyirlər. Hətta rəsm əsərlərini çəkməyi bacaran ziyarətçilərimiz də olur.

Bakı Beynəlxalq Kitab Sərgisi təkcə kitab satışının təşviqi deyil, həm də ədəbiyyat, mədəniyyət və elmin bir platformada birləşməsi üçün əhəmiyyətli bir məkandır. Sərgi, yerli və beynəlxalq nəşriyyatlar, müəlliflər və oxucular arasında mədəni mübadilə imkanı yaradır. Hər il bu sərgiyə dünyanın müxtəlif ölkələrindən iştirakçılar qatılır, bu da beynəlxalq kitab bazarının genişlənməsinə və mədəniyyətlər arasında əlaqələrin möhkəmlənməsinə kömək edir. Bu cür sərgilər cəmiyyətin mədəni inkişafında və gənclərin biliklərinin artırılmasında əhəmiyyətli rol oynayır. Sərgi ədəbiyyatsevərlərə, yazıçılara və mədəniyyət xadimlərinə bir araya gəlmək, müzakirələr aparmaq və yeni ideyalarla tanış olmaq imkanı yaradır.

Qeyd edək ki, Bakı Beynəlxalq Kitab Sərgisi ilk dəfə ölkəmizdə 7 gün keçirilir və ziyarətçilərin gedişgəlişi ödənişsiz əsaslarla, xüsusi avtobuslarla təşkil edilir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**